

# Sürətlə yeniləşən, müasirləşən Sumqayıt

*“...Sumqayıtı mən bax belə görürəm: gələcəkdə Cənubi Qafqazın ən böyük sənaye mərkəzlərindən biri, dünya miqyasında ən böyük sənaye mərkəzlərindən biri olmalıdır, eyni zamanda, ekoloji cəhətdən tam təmiz, insanlar üçün rahat, gözəl, abad bir şəhər olmalıdır. Sumqayıtın təbiətini, dənizə çıxışını nəzərə alaraq şəhər geniş miqyasda sənaye, turizm, mədəniyyət, istirahət mərkəzi olmalıdır. Bax mən Sumqayıtı belə görürəm. Bu məqsədlərə çatmaq üçün hesab edirəm ki, kifayət qədər işlər görülmüşdür və sumqayıtlılar bütün işlərdə fəal iştirak etmişlər”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




**Azərbaycanda ötən əsrin əvvəllərində başlanan sənayeləşmə prosesi 40-50-ci illərdə daha geniş vüsət alaraq həm də ölkədə bir neçə sırf sənaye şəhərinin tikilməsinə səbəb oldu. Müasir dövrdə öz sənaye potensialına görə ölkəmizin ikincisi sayılan Sumqayıt şəhəri də məhz o illərdə salınıb.**

**Bu gün artıq 70 yaşı tamam olan Sumqayıt öz gənclik təravətini heç itirməyib. Xəzərin sahilində yerləşən bu şəhər öz geniş prospekt və küçələriylə, yaşıl park və xiyabanlarıyla, səliqəli mikrorayon və məhəllələriylə hər zaman respublikamızda sayılıb-seçilib. Belə bir özünəməxsusluğun itirilməməsi üçün bir neçə ildir ki, şəhərdə görünməmiş miqyasda quruculuq-abadlıq işlərinə başlanılmışdır. Hazırda bu işlər yüksək templə, ən modern memarlıq üslubları cəlb edilməklə davam etdirilir. Bu səbəbdən də şəhər göz qabağında günü-gündən gözəlləşir, müasirləşir.**

İşlərə şəhərin bütün səlahiyyətli idarə və təşkilatları səfərbər edilmişdir və onların arasında ən fəallardan biri Sumqayıt Şəhər Mənzil-Kommunal Təsərrüfat Birliyidir. Elə bunu nəzərə alıb həmin birliyin rəisi Hüseyn Həsənovla görüşdük və ondan həyata keçirilən və perspektivdə olan tədbirlərdən danışmağı xahiş etdik. Hüseyn müəllim bunları söylədi:

– Dövlətimizin apardığı düzgün neft strategiyası ölkə iqtisadiyyatının inkişafına və bununla yanaşı, şəhər və qəsəbələrin, rayon mərkəzlərinin yenidən qurulub abadlaşmasına, müasirləşməsinə yüksək şərait yaratmışdır. Respublikamızın ikinci sənaye şəhəri sayılan Sumqayıtda aparılan tikinti-quruculuq tədbirləri də buna bariz nümunədir.

Son illər ölkədə qəbul olunan Dövlət proqramları, imzalanan qanun və fərmanlar əsasən sosialyönümlü olmuş və onlar sadəcə kağız üzərində qalmayaraq öz əksini dəfələrlə artmış təqaüd və maaşlarda, salınan transmilli magistrallarda, yol keçidi və körpülərdə, tikilən təhsil və səhiyyə ocaqlarında, ticarət və istirahət mərkəzlərində tapmışdır. Və bu proses durmadan, daim öz axarı ilə davam etdirilir.

Sevindiricidir ki, burada dünyəvilik, müasirlik prinsipləri nəzərə alındığından işlər də keyfiyyətcə daha yüksək müstəviyə adlamışdır. Bakı şəhərində inşa edilən müasir layihəli binalar, modern üslublu parklar, funksional yol qovşaqları buna bariz sübutdur. Lakin bu cür projelərin paytaxtdan savayı, ölkəmizin digər şəhər və rayon mərkəzlərində tətbiqi, indi bəlkə də ümdə şərtdir. Məhz belə anlamdan irəli gələrək dövlət başçısı İlham Əliyev respublikamızın iri şəhər və rayon mərkəzlərində daha praktik və keyfiyyətli abadlıq-quruculuq işlərinin aparılması məqsədilə bir neçə ildir ki, öz ehtiyat fondundan əlavə maliyyə vəsaiti ayrılması haqqında sərəncamlar imzalayır. Təkcə respublikamızda deyil, onun hüdudlarından çox uzaqlarda iri sənaye mərkəzi kimi tanınan Sumqayıt da dəfələrlə Prezident sərəncamı ilə yenidənqurma, abadlıq və yaşıllaşdırma işlərinin davam etdirilməsi üçün əlavə vəsait alan şəhərlərdən biri olub.

*“Biz Sumqayıtın inkişafına kompleks şəkildə yanaşırıq. Şəhərin inkişafı üçün master plan hazırlanır, onun ilkin əlamətləri artıq var və reallaşır. Mən yeni, müasir yanaşma ilə hesab edirəm ki, bir neçə il ərzində Sumqayıtda çox böyük quruculuq, abadlıq işləri başa çatacaq və şəhər ölkəmizin, bölgənin və bəlkə də dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir. Bu bizim hədəfimizdir. Bəzi hallarda qarşıya qoyduğumuz hədəflər çox böyük görünür, ancaq həyat göstərir ki, biz bütün məqsədlərə çatırıq”. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti.*

Sumqayıt postsovet dövründə salınmış və bu il cəmi 70 yaşı tamam olmuş zəhmətkeşlər şəhəridir. Belə gənc olmasına baxmayaraq, Sumqayıtın respublikamızın həyatında əlamətdar hadisələrlə dolu, iri hərflərlə yazılmış öz salnaməsi var. Sırf sənaye mərkəzi kimi layihələndirildiyindən burada olan küçə və prospektlərin genişliyi, park və xiyabanların çoxluğu şəhərin ümumi simasını formalaşdıran amillərdəndir. Şəhər salınarkən zavod və fabriklərin çoxluğunu nəzərə alan memarlar ilk növbədə yaşıllığa və yaşayış massivlərinin sənaye obyektlərindən kənarda tikilməsinə xüsusi fikir vermişlər. Məhz belə yanaşma özünəməxsus memarlığı, siması olan bir şəhərin yaranmasına imkan vermişdir.

Lakin bütün bunlar çağdaş dövrümüz üçün artıq kifayət deyil. Çünki müasirliyin öz tələbləri, öz yanaşmaları var. Onlardan ən əsası memarlıqda yeknəsəqliyə yolverilməzlikdir. Razılaşaq ki, Sovet dövründə salınan Sumqayıtın memarlıq üslubunda bu amil çox böyük yer tuturdu. Eyni yaşayış massivləri, küçə və prospektlər, oxşar mikrorayon və binalar. Park və xiyabanlarda sadə landşaft, ucuz materiallardan düzəldilmiş fəvvarələr, köhnəlmiş işıqlanma sistemləri heç bir vəchlə müasir insanın zövqünə uyğun gəlmirdi. Bir sözlə, Sumqayıta çoxdan təzə bir nəfəs, ruh tələb olunurdu ki, belə dəyişikliklər də 2015-ci ilin ortalarından şəhərdə başlanılan abadlıq, yenidənqurma və yaşıllaşdırma işlərində öz əksini tapdı.

Sentyabr ayının 2-də Prezident sərəncamı ilə Sumqayıta icra başçısı təyin olunmuş Zakir Fərəcov ölkədə zəhmətkeş, işgüzar, prinsipial və ən əsası müasir bir təsərrüfatçı kimi tanınan şəxsdir. O, Sumqayıta başçı kimi gəldiyi tarixdən, hər gün şəhəri gəzir, mikrorayon və məhəllələrə baş çəkir, park və bağların vəziyyəti ilə tanış olur, sakinlərlə söhbətləşirdi. Bəzən bu proses o qədər uzanırdı ki, başçı gün ərzində bir dəfə də olsun, öz iş otağına daxil ola bilmir, sərəncam və tapşırıqlarını elə ayaq üstəcə verirdi. Əlbəttə, Prezident İlham Əliyevin Sumqayıt ictimaiyyəti ilə görüşü zamanı dediyi ***“Sumqayıt paytaxt standartlarına tam şəkildə uyğunlaşdırılmalıdır”*** sözlərini yüksək keyfiyyətlə və sürətlə həyata keçirmək üçün rahatlıq bilmədən çalışmaq lazım idi.



Görüləcək işlər həddən artıq çox olduğundan Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı yanında memar, mühəndis, dizayner və digər şəhərsalma ilə bağlı mütəxəssislərdən ibarət işçi qrup yaradıldı. Bu işçi qrup şəhərə baxış keçirəndən sonra öz məsləhət və təklifləri ilə çıxış etdi. Təkliflər kollegial şəkildə müzakirə olundu və ancaq bundan sonra qəbul edilən eskizlər layihələndirildi.

*“...Sumqayıt gənc şəhərdir. O, çox şərəfli, gözəl bir tarixi yol keçibdir. İndi Sumqayıt Azərbaycanın həm gözəl, həm də böyük iqtisadi, sənaye potensialına malik bir şəhəridir, həm də gözəl insanlar şəhəridir... Bizim üçün ən əhəmiyyətlisi, əziz olanı odur ki, Sumqayıtda Azərbaycanın bütün guşələrindən, şəhərlərindən, bölgələrindən vətəndaşlarımız toplaşıblar, məskunlaşıblar, burada bir ailə - sumqayıtlılar ailəsi qurublar. Sumqayıt şəhəri bütün Azərbaycanı təmsil edir. Bu, Sumqayıtın xüsusiyyəti, əhəmiyyətidir. Ona görə də Sumqayıt Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir”.*

**Ümummilli lider Heydər ƏLİYEV.**




Deməliyik ki, qəbul olunan layihələr bu günün ən kreativ konsepsiyalarına söykənərək hazırlanıb. Çünki ölkə başçısının arzusu gənclər şəhəri kimi tanınan Sumqayıtı hər zaman müasir, qabaqcıl görməkdir. Azərbaycan Prezidenti İlham Əliyevin bu istək və tövsiyələrini birmənalı şəkildə qəbul edən sumqayıtlılar bu günlərdə çiyin-çiynə verib şəhərdə abadlıq-quruculuq işlərini böyük ruh yüksəkliyi ilə həyata keçirirlər. Şəhəri gəzdikdə bunların hamısını əyani görmək olar.

Sumqayıt şəhərinin baş girişi Sülh küçəsi sayılır. Bakı-Quba yolundan başlayaraq düz dəniz kənarınacan davam edən bu küçə şəhərin ən uzun küçələrindən biridir. Sumqayıtda ilk abadlıq-quruculuq və yaşıllaşdırma işlərinin də elə bu küçədən başlandığını desək, heç yanılmarıq. Əvvəlcə, yolun hər iki tərəfində genişləndirmə işləri aparılıb. Mövcud yolun asfalt örtüyü 90 min kvadratmetrə çatdırılıb və nəqliyyatın rahat hərəkətinə tam şərait yaradılıb. Yolun hər iki tərəfində ümumi uzunluğu 7 kilometr olan yağış sularının qəbuledicisi, su, kanalizasiya, kommunikasiya xətləri, küvetlər çəkilib, 100 min kvadratmetr sahəyə yaşıl örtük salınıb və təkcə bu ərazidə 120 mindən çox ağac və dekorativ kollar əkilib. 16 min kvadratmetr hasar çəkilib, gecə işıqlandırma sistemi, 110 ədəd müasir işıq dirəyi quraşdırılıb. Yolun giriş hissəsində Bayraq Meydanı tikilib.

Sumqayıtın ikinci giriş yolu hesab olunan Sahil küçəsi də yenidən qurulub, dəniz kənarı ilə Novxanı istiqamətində 7,5 kilometr uzunluğunda yol əsaslı təmir olunub. Yolun eni iki dəfə genişləndirilərək 13 metrə çatdırılıb, 112 min kvadratmetr sahəyə asfalt döşənib. Yolboyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün piyada yolu çəkilib və 7000 kvadratmetr səki daşı düzülüb. Elə bu küçədə kommunikasiya xətləri çəkilib, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağaclar, kollar, güllər əkilib və yaşıllıqlar salınıb. Yolboyu 5 kilometr uzunluğunda istinad divarları çəkilib, hasarlar aqlay daşı ilə üzlənib, yolkənarı obyektlər təmir olunub. Yolun Corat qəsəbəsindən keçən hissəsində sakinlərin istirahəti üçün parklar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

Şəhər ərazisində olan bütün park və meydanlar yenidən qurulub. Şəhərdə ekoloji mühitin sağlamlaşdırılması məqsədilə 250 mindən çox ağac, 2 milyona yaxın gül əkilib, küçə və prospektlər boyunca yolların kənarlarına, eləcə də park və xiyabanlara 400 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınıb.

Bu arada ulu öndərimizin adını daşıyan, Sumqayıtın “Heydər parkı”nda da irihəcmli abadlıq, tikinti, yaşıllaşdırma tədbirləri həyata keçirilib. Şəhərə dəvət olunmuş işçi qrup dəfələrlə bu parkla bağlı məşvərət iclasları keçirmiş, arqument və təkliflər müzakirə edildikdən sonra burada yenidənqurma tədbirlərinin aparılması qərarı verilmişdir. Daha sonra çoxsaylı layihələr hazırlansa da, onların arasından ən qabaqcıl düşüncəli, kreativ bir proje seçilmişdir.

Ulu öndərimizin adını daşıyan parkın ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib. Parkda 200-dən çox müasir işıq dirəyi, oturacaqlar quraşdırılıb, 5 mindən çox ağac, dekorativ kol əkilib, 20 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınıb, 30 min kvadratmetr daş döşənib, rəngli fontan kompleksi və Bayraq Meydanı tikilib, uşaqlar üçün əyləncə mərkəzi inşa olunub.

*“...Sumqayıt gənc şəhərdir. O, çox şərəfli, gözəl bir tarixi yol keçibdir. İndi Sumqayıt Azərbaycanın həm gözəl, həm də böyük iqtisadi, sənaye potensialına malik bir şəhəridir, həm də gözəl insanlar şəhəridir... Bizim üçün ən əhəmiyyətlisi, əziz olanı odur ki, Sumqayıtda Azərbaycanın bütün guşələrindən, şəhərlərindən, bölgələrindən vətəndaşlarımız toplaşıblar, məskunlaşıblar, burada bir ailə - sumqayıtlılar ailəsi qurublar. Sumqayıt şəhəri bütün Azərbaycanı təmsil edir. Bu, Sumqayıtın xüsusiyyəti, əhəmiyyətidir. Ona görə də Sumqayıt Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir”. Ümummilli lider Heydər ƏLİYEV.*

Yuxarıdakı kəlmələrdən də görünür ki, ümummilli liderimiz Heydər Əliyev zəhmətkeşlər şəhəri olan Sumqayıta hər zaman xüsusi hörmət və məhəbbətlə yanaşmışdır. Sumqayıtlılar da ulu öndərin bu münasibətini, onun qayğı və diqqətini həmişə öz üzərlərində əyani şəkildə hiss ediblər. Sumqayıtın sosial-iqtisadi inkişafında, sənaye strukturlarının formalaşmasında, bununla yanaşı, şəhərin humanitar sektorunun, elm, təhsil, səhiyyə və mədəniyyətinin tərəqqisində onun müstəsna əməyi olmuşdur. Siyasi hakimiyyəti dövründə 16 dəfə Sumqayıtda olan ulu öndər Heydər Əliyevin hər səfəri sumqayıtlıların qəlbində unudulmaz təəssüratlar yaradaraq, şəhər üçün tarixi bir hadisəyə çevrilmişdir. Ona görə də qədirbilən sumqayıtlılar ulu öndərin vəfatından sonra şəhərin görünən, mərkəzi yerində ona əzəmətli abidə ucaltdılar, ən uzun prospektə onun adını verdilər, möhtəşəm bir “Heydər parkı” saldılar. Ancaq şəhərdə Heydər Əliyev kimi siyasi liderə yaraşan mərkəz yox idi. Nəhayət, bu arzularına da sumqayıtlılar 27 sentyabr 2016-cı il tarixində çatdılar. Həmin gün dövlət başçısı İlham Əliyev “Heydər parkı”nın düz mərkəzində tikilmiş Heydər Əliyev Mərkəzinin simvolik qırmızı lentini kəsdi və bu gözəl məkanı Sumqayıt sakinlərinə ərməğan etdi.

***“...Biz bu gün Sumqayıtda bir çox gözəl obyektlərin açılışını qeyd edirik. Onların arasında, əlbəttə ki, öz əzəməti, möhtəşəmliyi ilə seçilən Heydər Əliyev Mərkəzidir. Bu Mərkəz həm memarlıq, həm də funksionallığı baxımından çox gözəl abidədir, ulu öndərin adına yaraşan bir Mərkəzdir”. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti.***




Ümumi sahəsi 5 min kvadratmetr olan dördmərtəbəli Heydər Əliyev Mərkəzində ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən eksponatlardan ibarət muzey, 400 yerlik iclas, 50 yerlik konfrans, rəqs, sərgi və kompüter zalları, elektron kitabxana, xalçaçılıq dərnəyi, rəsm və linqafon otaqları, smart sinfi, foto və videostudiya, gənclər üçün diskussiya zalları fəaliyyət göstərir. Dərnəklərlə yanaşı, dördüncü mərtəbədə nikah mərasim zalı da fəaliyyət göstərir.

Parkın ərazisində müasir memarlıq üslubunda Şahmat Məktəbi tikilib. Məktəbdə 25 qrup olmaqla, 550-600 şagirdin dərs keçməsi, həmçinin müxtəlif irimiqyaslı yarışların təşkili üçün lazımi şərait yaradılıb. Eyni zamanda, parkın ərazisində Uşaq İncəsənət Məktəbi də inşa edilib.

***“Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq. Sumqayıt Bulvarı cəmi bir il ərzində, bəlkə də ondan da az bir vaxtda yaradılıb. Məsafəsi dörd kilometrdən çox olan bu bulvar göz oxşayır. Burada həm plyaj, həm də bulvar hissələri var, yol çəkilib və bütün infrastruktur, istirahət zonaları yaradılıb. Əminəm ki, bulvar Sumqayıt sakinlərini və şəhərin qonaqlarını sevindirəcək”. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti.***

Ən böyük işlərdən biri də ümumi sahəsi 106 hektar, uzunluğu 4,2 kilometr olan ərazidə salınan Sumqayıt Bulvarında aparılıb.

Bulvar ərazisinin səviyyəsi dəniz səviyyəsindən 2,5 metr qaldırılıb, təkcə bu işlər üçün 3 milyon kubmetrdən çox torpaq daşınıb, 4,2 kilometr uzunluğunda, özülü 80 santimetr, yer səthindən 1,5 metr hündürlüyündə istinad divarı tikilib. Bulvarda 55 hektar ərazidə yaşıllıq zolağı salınıb, 160 mindən çox ağac və dekorativ kol, 2 milyon ədəd gül və çiçək əkilib, avtomat suvarma sistemi yaradılıb. Həmçinin, 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib, 1500 ədəd müxtəlifölçülü işıq dirəkləri və işıqlandırma sistemi quraşdırılıb. İnsanların rahat istirahəti üçün 600-dən çox oturacaq qoyulub, 50 kölgəlik yaradılıb, 5 ədəd rəngli fontan inşa edilib.

Bulvarın ərazisində velosipedçilər üçün xüsusi hərəkət zolağı və 12 min poqonmetr piyada yolu salınıb, 4,2 kilometr və ya 100 min kvadratmetr asfalt işi görülüb, 30 hektar əraziyə daş döşənib. Ərazidə yeni Bayraq Muzeyi və Muğam Mərkəzi tikilmişdir. Hazırda Bulvarın davamı olan hissəsində 40 hektar sahə artırılaraq genişləndirilmiş, 30000 ədəd ağac, 200 ədəddən çox kürsülü oturacaqlar, 40000 kvadratmetr tamet döşənmiş, 2 ədəd fəvvarə quraşdırılmışdır.

Prezidentin tapşırığına əsasən, Sumqayıt Dövlət Dram Teatrında da təmir işləri aparılmışdır. 3 min kvadratmetr sahəsi olan dördmərtəbəli teatr binası zirzəmidən tutmuş damınadək əsaslı təmir olunub, müasir avadanlıqlarla təchiz edilib. 150 nəfərədək personalı olan teatr binasında 500 yerlik tamaşa, 100 yerlik akt zalları, bütün xidməti otaqlar əsaslı təmir edilib, işıqlandırma sistemi müasir üslubda yenidən qurulub. Teatrın qarşısındakı meydana 15 min kvadratmetr qranit daş döşənib, iki fontan və monitor quraşdırılıb. Qeyd edim ki, bu ərəfədə Kimyaçı Mədəniyyət Sarayı da əsaslı təmir edilmişdir.

Dövlət başçısı tərəfindən ayrılmış vəsait hesabına 950 ədəd çoxmənzilli yaşayış binasının dam örtüyü yenidən qurulub və hazırda bu işlər davam etdirilir. 177 çoxmənzilli yaşayış binasında 452 lift dəyişdirilərək yenisi ilə əvəz olunub. Yaşayış binalarının memarlıq və dizayn baxımından müasir görkəminin saxlanması məqsədilə 252 binanın fasadı yenidən qurulub, Azərbaycan prospektində 47 bina aqlay daşları ilə üzlənib.

Dövlət başçısının tapşırığına əsasən şəhərdaxili avtomobillə sərnişindaşınma xidməti şəhər icra hakimiyyətinin tabeliyinə verilib. Bu iş pilot layihə olaraq əhaliyə nəqliyyat xidmətinin lazımi səviyyədə qurulmasını təmin edir.

Şəhərin əksər məhəllə və mikrorayonlarının ərazisində ümumilikdə 3500000 kvadmetrdən çox sahəyə asfalt örtüyü döşənmişdir. Hazırda bu işlər davam etdirilməkdədir.

*“Biz Sumqayıtın inkişafına kompleks şəkildə yanaşırıq. Şəhərin inkişafı üçün master plan hazırlanır, onun ilkin əlamətləri artıq var və reallaşır. Mən yeni, müasir yanaşma ilə hesab edirəm ki, bir neçə il ərzində Sumqayıtda çox böyük quruculuq, abadlıq işləri başa çatacaq və şəhər ölkəmizin, bölgənin və bəlkə də dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir. Bu bizim hədəfimizdir. Bəzi hallarda qarşıya qoyduğumuz hədəflər çox böyük görünür, ancaq həyat göstərir ki, biz bütün məqsədlərə çatırıq”.*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Şəhərdə məktəb, uşaq bağçaları ilə bağlı problemlərin aradan qaldırılması sahəsində də müəyyən işlər görülüb. Belə ki, 56 uşaq bağçasından 48-nin dam örtüyü dəyişdirilib, istilik sistemi bərpa edilib, 8 uşaq bağçası əsaslı təmir olunub, ərzaq təminatı məsələləri tam qaydaya salınıb.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində şəhərdə 6 məktəb əsaslı təmir edilib.

Şəhərin səhiyyə ocaqları da diqqətdən kənarda qalmayıb, cari ildə 5 xəstəxana və poliklinikada təmir işləri aparılıb.

Şəhərdə görülən çoxsaylı işlərlə yanaşı, perspektiv layihələr də az deyil. Planlaşdırılır ki, əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün yaxın dövrdə Kimyaçılar və İnşaatçılar yaşayış sahəsindəki ötən əsrin 40-50-ci illərində tikilmiş, istismar müddətini başa vurmuş, kommunal şəraiti olmayan və qəzalı vəziyyətli 100-ə yaxın taxta konstruksiyalı yaşayış binasının sökülməsi və əhalinin köçürülərək yeni mənzillərə yerləşdirilməsi məsələsi həllini tapsın. Həmçinin, mərhələli şəkildə 100-dən çox yataqxana binasının əsaslı təmiri, 120 kilometr uzunluğunda şəhərdaxili yolların, 1,5 milyon kvadratmetr məhəllə və mikrorayondaxili sahələrin yenidən qurulması, 40 minə yaxın əhalinin yaşadığı ərazidən keçən, əhalinin və sənaye müəssisələrinin kanalizasiya xətti kimi istifadə etdiyi 7,5 kilometr uzunluğunda Acı Dərə kanalının boruya alınması kimi vacib işlər də görülməlidir.

Bəli, aparılan irimiqyaslı abadlıq, quruculuq işləri hesabına bugünkü Sumqayıt sürətlə yeniləşir, müasirləşir və yaşamaq üçün dünyanın ən rahat şəhərlərindən birinə çevrilir.

Yeni həyatın, 70 yaşın mübarək olsun, Sumqayıt!

**Söhrab SƏFİYEV,**
**“Respublika”.**









